AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

ZAHEDIAVVAL MASOUD QULAMRZA OĞLU

# YAXIN ŞƏRQ ÖLKƏLƏRININ IQTISADIYYATINA QLOBAL MALIYYƏ BÖHRANININ TƏSIRI

**5310.01 – Dünya iqtisadiyyatı**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi**

**almaq üçün təqdim edilmiş dissertasiyanın**

## A V T O R E F E R A T I

**Bakı 2013**

**Dissertasiya AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** iqtisad elmləri doktoru,
prof. D.Ə.Vəliyev

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, prof.
A.M. Məhərrəmov
iqtisad üzrə fəlsəfə doktoru
M.R. Rəsulova

**Aparıcı müəssisə:** AMEA-nın İqtisadiyyat İnstitutunun "Maliyyə, pul-kredit siyasəti" şöbəsi

Müdafiə «14» yanvar 2014-cü il tarixdə saat «$11^{00}$» da Bakı Dövlət Universitetinin nəzdindəki B/FD.02.016 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az.1148, Bakı şəh., Z.Xəlilov küç., 23, Bakı Dövlət Universiteti

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «11» dekabr 2013-cü ildə göndərilmişdir.

**B/FD.02.016 Dissertasiya**

**Şurasının elmi katibi** **r.e.d., prof. N.Q.Əhmədov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. XX əsrin sonundan etibarən dünya iqtisadiyyatı keyfiyyətcə yeni qloballaşma mərhələsinə daxil olmuşdur. Qlobal proseslər iqtisaidi inkişaf səviyyəsindən, din və mədəniyyətlərindən asılı olmayaraq, dünya ölkələrinin və xalqlarının bir-birindən qarşılıqlı asılılığını getdikcə artırır. Bu proseslər onların taleyini həlledici dərəcədə müəyyən etməyə başlamışdır.

Ona görə də iqtisadi inkişafın müasir təmayülləri sosial-iqtisadi inkişaf problemlərinə getdikcə daha çox qlobal yanaşma tərzini tələb edir. Ona görə də həyat bütün kəskinliyi ilə tələb edir ki, ölkənin spesifik xüsusiyyətləri qloballaşmanın doğurduğu yeni şəraitlə sıx sürətdə əlaqələndirilsin. Beləliklə, hər hansı bir ölkədə sosial-iqtisadi transformasiyaların konkret bir ərazidə daxili sosial-iqtisadi qüvvələrin və proseslərin təsiri altında baş versə də, həmin transformasiyaları doğuran səbəblərə, onların mahiyyəti və inkişaf perspektivlərinə yalnız həmin ölkənin daxili prizmasından baxılması müasir dövrdə kifayət deyil. Bu yanlış nəticələrə gətirib çıxara bilər. Qeyd edilənlər müəyyən çətinliklər və risklər yaradır. Bu risklərin aradan qaldırılması və ya azaldılması yeni yanaşmaları tələb edir. Son dövrlərdə dünya iqtisadiyyatında, xüsusən maliyyə-valyuta bazarlarında baş verən proseslər - qlobal spekyulativ kapital axınları və köpüklərin yaranması, bunlarla əlaqəli olan Asiya maliyyə böhranı (1997-1998), Rusiya defoltu (1998), son qlobal maliyyə böhranı (2008) və müxtəlif ölkələrdə xarici iqtisadi fəaliyyət sahəsində aparılan liberallaşdırmanın həm müsbət, həm də neqativ təcrübələri, qlobal maliyyə-iqtisadi qloballaşma prosesinin heç də rahat olmadığını göstərir.

Qlobal iqtisadi böhran dünyanın bütün ölkələrinə öz təsirini göstərməkdədir. Bu böhran onu göstərdi ki, dünya iqtisadiyyatı hələ ki özünü böhranlardan sığortalaya bilməyib. Geniş miqyaslı anti-böhran tədbirlərinə baxmayaraq böhranın fundamental problemi olan həddan artıq borclanma problemi hələ ki həll oluna bilməyib. Hətta bu problemi yeni borclanma hesabına həll etməyə cəhd edilir, nəticədə bu böhranı daha da dərinləşdirir.

Yaxın Şərq ölkələrində qloballaşma prosesləri daha ağır baş verir. Bu, həmin ölkələrin iki mühüm proses: iqtisadi transformasiya və qloballaşma prosesləri ilə üzləşməsi ilə əlaqədardır. İqtisadi transformasiya prosesləri dərinləşdikdə, qloballaşma onların iqtisadiyyatına, iqtisadi siyasətinə getdikcə daha çox təsir göstərir.

2008-ci ildə bütün dünyanı sarsıdan qlobal maliyyə böhranı Yaxın Şərq ölkələri üçün nə dərəcədə ciddi olduğunu göstərdi. Yaxın Şərq ölkələrində

anti-böhran tədbirlərinə baxmayaraq bu ölkələrdə dayanıqlı inkişaf üçün bir sıra təhlükələr var. Bu təhlükələr böhrandan qabaq olsa da böhran onları üzə çıxartdı və daha da dərinləşdirdi.

Qlobal maliyyə böhranının Yaxın Şərq ölkələrində mövcud olan problemlər və təhlükələri üzə çıxarması, bu problem və təhlükələrin vaxtında öyrənilməsi bu gün Yaxın Şərq ölkələri üçün həyati əhəmiyyət kəsb edən məsələlərdəndir.

Yuxarıda deyilənlər Qlobal maliyyə böhranının Yaxın Şərq ölkələrinə (Yaxın Şərq dedikdə Orta Şərq və Şimali Afrika regionu ölkələri nəzərdə tutulur və Beynəlxalq Valuta Fondunun təsnifatına uyğun olaraq bu regiona Birləşmiş Ərəb Əmirliyi, Bəhreyn, Əlcəzair, Cibuti, İordaniya, İran, İraq, Küveyt, Qatar, Livan, Liviya, Mavritaniya, Mərakeş, Misir, Oman, Səudiyyə Ərəbistanı, Sudan, Suriya, Tunis, Yəmən daxil edilir) təsirinin qiymətləndirilməsi və 2010-11-ci illərdə Yaxın Şərq ölkələrində həyata keçirilən anti-böhran tədbirlərinin səmərəliliyinin artırılması yollarının öyrənilməsi böyük əhəmiyyət kəsb etdiyindən təqdim edilən dissertasiya işinin mövzusunun son dərəcə aktualdır.

**Problemin öyrənilmə vəziyyəti**. Yaxın Şərq ölkələrinin iqtisadi inkişafı Badr Əl Din A.İbrahim, Bassam Yousif, Cin-Francois Seznek, Mimi Kirk, Vəliyev D. və bir çox tədqiqatçıların tədqiqat obyekti olmuşdur.

Qlobal maliyyə-iqtisadi böhranı Yaxın Şərq ölkələrində bir sıra problemləri üzə çıxarmışdır ki, bu da qeyd edilən istiqamətdə tədqiqatların davam etməsinin zəruriliyini göstərir və tədqiqat mövzusunun seçilməsini, onun məqsəd və vəzifələrinin müəyyənləşdirilməsini şərtləndirmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi qlobal maliyyə böhranının Yaxın Şərq ölkələrinə təsirinin, həmçinin 2010-2011-ci illərdə Yaxın Şərq ölkələrində həyata keçirilən anti-böhran tədbirlərinin qiymətləndirilməsi və bu tədbirlərin səmərəliliyinin artırılması üzrə əsaslandırılmış təklif və tövsiyələrin hazırlanmasıdır.

Qoyulmuş məqsədə müvafiq olaraq tədqiqatın vəzifələri aşağıdakılardır:

1) İqtisadi və maliyyə böhranlarının səbəblərinin təhlili
2) Yaxın Şərq ölkələrinin qlobal maliyyə böhranından əvvəlki və cari iqtisadi vəziyyətinin qiymətləndirilməsi
3) Qlobal maliyyə böhranının Yaxın Şərq ölkələrinə təsirinin qiymətləndirilməsi

4) Yaxın Şərq ölkələrində həyata keçirilən anti-böhran tədbirlərinin təhlili və qiymətləndirilməsi
5) Anti-böhran tədbirlərinin səmərəliliyinin artırılması üzrə təkliflərin hazırlanması

**Tədqiqatın nəzəri və metodoloji bazasını** Keyns, Fridmen, Şastitko, Robert Skidelski, Derluqyanov, Dünya Bankı, İMF və sair qurumların, həmçinin müxtəlif iqtisadçıların mövzuya həsr olunmuş tədqiqatları təşkil edir.

Dissertasiya işində sistemli təhlil, analitik, statistik və sair tədqiqat metodları istifadə olunub.

**Tədqiqatın informasiya bazasını** Dünya Bankı, İMF və sair qurumların statistikası təşkil etmişdir.

**Tədqiqatın obyektini** Yaxın Şərq ölkələri təşkil edir.

**Tədqiqatın predmetini** Qlobal maliyyə böhranının Yaxın Şərq ölkələrinə təsiri və həyata keçirilən anti-böhran tədbirləri təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** aşagıdakılardır:

- Iqtisadi böhranların səbəbləri aşkarlanmış, nəzəri-metodoloji yanaşmalar ümumiləşdirilmişdir;
- Iqtisadi böhranın kökündə əxlaq problemlərinin durması əsaslandırılmışdır;
- Yaxın Şərq ölkələrində həyata keçirilən anti-böhran tədbirlərinin təsnifatı verilmiş və bu təsnifata uyğun olaraq təhlil edilmişdir;
- Yaxın Şərq ölkələrində anti-böhran proqramının prioritet istiqamətləri müəyyən edilmişdir;
- Yaxın Şərq ölkələrində anti-böhran tədbirlərinin səmərəliliyinin artırılması yolları müəyyənləşdirilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti**. Dissertasiyanın praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatdan çıxan nəticələrin və onların əsasında irəli sürülmüş təklif və tövsiyələrin reallaşması anti-böhran tətbirlərinin səmərəliliyinin artırılmasına imkan verəcəkdir.

**Tədqiqat işinin nəticələri aprobasiyası və nəticələrinin tətbiqi**. Dissertasiya işinin əsas nəzəri müddəaları ayrı-ayrı aspektləri və nəticələri, ölkə səviyyəsində keçirilmiş konfrans və seminarlarda müəllif tərəfindən məruzə edilmişdir.

**Dərc olunmuş məqalə və nəşrlər**. Dissertasiya işinin əsas müddəalarını əks etdirən 3-ü xaricdə olmaqla 8 məqalə dərc edilmişdir.

**Tədqiqat işinin həcmi və strukturu**. Dissertasiya işi giriş, 3 fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmaqla 130 səhifə həcmindədir. İşdə 50 diaqram və 14 cədvəl verilmişdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**Giriş** hissəsində dissertasiya işinin mövzusunun elmi aktuallığı əsaslandırılır, onun obyekti və predmeti dəqiqləşdirilir, dissertasiya işinin əsas məqsədi və bu məqsədə nail olmaq üçün vəzifələr müəyyənləçdirilir. Giriş hissəsində həmçinin tədqiqatın elmi yeniliyi, onun nəzərə və metedoloji əsasları, praktiki əhəmiyyəti, problemin öyrənilmə vəziyyəti, tədqiqat işinin aprobasiyası və nəticələrinin tətbiqi, tədqiqat işinin strukturunun qısa məzmunu göstərilir.

**Birinci fəsildə** iqtisadi-maliyyə böhranları və onların səbəblərinin öyrənilməsinin nəzəri-metodoloji əsasları tədqiq edilir. Maliyyə və iqtisadi böhranların səbəbləri tədqiq edilərkən qeyd olunur ki, istənilən böhran əvvəlki inkişaf meyllərinin ziddiyətli xarakterinin və qeyri-mükəmməl olmasının nəticəsidir. Bu mənada, son qlobal maliyyə böhranı da istisna deyil və onun xüsusiyyətləri göstərir ki, dünya hələ də özünü qeyri-sabitlikdən, böhrandan qoruma mexanizmini yarada bilməmişdir.

İqtisadi böhranları izah edən bir neçə nəzəriyyə mövcuddur. Məlum olduğu kimi, böhran iqtisadiyyatda tələb və təklif arasındakı tarazlığının pozulması nəticəsində baş verir.

Klassik nəzəriyyəyə əsasən iqtisadiyyatda həmişə tarazlıq mövcuddur, yəni məcmu tələb həmişə məcmu təklifə bərabərdir. Sey qanununa əsasən məhsulun istehsalı (məcmu təklif) adekvat məcmu tələbi yaradaraq avtomatik şəkildə tarazlığı təmin edir. Tarazlıq yalnız müvəqqəti olaraq ayrı-ayrı bazarlarda pozula bilər.

Keyns böhranların səbəbini məcmu tələbdə görürdü. Keynsə əsasən məcmu tələb heç də həmişə bütün məhsulların istehlakını təmin etmir. Bunun səbəbi kimi Keyns likvidliyə üstünlük verilməsini göstərir. Keyns likvidliyə üstünlük verilməsinin üç motivini (transaksion motiv, ehtiyat motivi və spekulyativ motiv) göstərərək pulun tezavrasiyası (pulun dövriyyədən çıxarılması) problemini qeyd etmiş və onu (yəni pulun tezavrasiyasını) sosial təhlükə adlandırmışdır.[1]

---

1 Keynes J. M. The General Theory of Employment, Interest and Money

Likvidliyə üstünlük verilməsi və pulun tezavrasiyası istehlakı və ya məcmu tələbi azaldaraq ifrat istehsal böhranına, işsizliyə gətirib çıxarır.

Keynsin digər yeniliyi iqtisadi böhranların psixoloji amillərlə əlaqələndirilməsi idi. İqtisadiyyatda şok dəyişikliklər “insan və investorların sürü hissləri” nəticəsində tələbin dəyişməsi nəticəsində baş verir. Belə ki, əgər insanlar böhranı gözləyirlərsə, bu, onları daha çox qənaət etməyə vadar edir ki, nəticədə iqtisadiyyatda istehlak azalaraq böhranı reallaşdırır. Və ya əgər investorlar böhranı gözləyirlərsə, bu, onların investisiya fəaliyyətini azaldır. Investisiyaların azalması məşğulluğu və gəlir səviyyəsini azaldır, Nəticədə məcmu tələb azalaraq böhrana gətirib çıxarır.

Böhranları izah edən digər, son Qlobal maliyyə böhranı ilə əlaqədar məşhurlaşan nəzəriyyə Minski tərəfindən irəli sürülmüş “maliyyə kövrəkliyi” fərziyyəsidir. Minski fərziyyəsinə əsasən böhran bazar iştirakçılarının vaxtaşırı üzləşdiyi banklar qarşısında öz öhdəliklərini yerinə yetirə bilməməsi problemilə, yəni öhdəliklərin aktivləri üstələməsi ilə əlaqəlidir. Bu halda öhdəliklərini ödəyə bilməyən şəxslər öz borclarını ödəmək üçün yeni, hətta daha yüksək faiz dərəcəsi ilə borc götürməyə məcbur olur. Borcluların borc tələsinə düşməsi ilə yanaşı maliyyə və digər resursların səmərəli firmalardan qeyri-səmərəli firmalara axını baş verir. Qeyri-səmərəli firmaların maliyyəşdirilməsi maliyyə resurslarının səmərəli istifadəsini məhdudlaşdırır.

Son Qlobal iqtisadi böhran istənilən böhran kimi gəlirlərin təkrar bölgüsü sahəsindəki böhrandır.

İqtisadiyyatın stimullaşdırılması məhz gəlirlərin təkrar bölgüsü prosesinə müdaxiləsi hesabına baş verir. Belə ki, həm vergi dərəcələri, həm faiz və kredit gəlirlərin hərəkətini, yəni təkrar bölgüsünü təmin edərək məcmu tələbi və investisiyaları stimullaşdıraraq iqtisadi artımı təmin edirlər.

Gəlirlərin təkrar bölgüsü aşağıdakı alətlər vasitəsilə baş verə bilər:

1. Büdcə-vergi alətləri
2. Monetar alətlər (kredit və faiz dərəcəsi)
3. Fədakarlıq

Bazar iqtisadiyyatı şəraitində gəlirlərin hərəkəti və iqtisadiyyatın stimullaşdırılması vergilər və ya kredit və faiz dərəcəsi vasitəsilə baş verir.

Beləliklə, son iqtisadi böhranlar fiskal və monetar alətlərin imkanlarının məhdud olduğunu göstərdi: mövcud iqtisadi sistemdə gəlirlərin hərəkəti ya məcburi (vergilər vasitəsilə), ya da hansısa mənfəət asasında (faiz dərəcəsi) baş verir. Bu alətlər işləmədikdə gəlirlərin hərəkəti dayanır və bu da böhrana səbəb olur.

Vergi və monetar alətlərin işləmədiyi şəraitdə gəlirlərin hərəkəti yalnız fədakar cəmiyyətlərdə mümkündür. Belə cəmiyyətlərdə insanlar pullarını təmənnasız olaraq borc və ya sədəqə şəklində digərlərinə verirlər. Bu da məcmu tələbi artıraraq iqtisadi artımı stimullaşdırır.

Beləliklə, yalnız iqtisadi alətlərə əsaslanan iqtisadi sistem böhrana məhkumdur.

Burada qeyd etmək istərdik ki, bazar iqtisadiyyatı, pulların təmənnasız, yəni mənfəət olmadan digər şəxslərə verilməsini qeyri-rasional hesab edərək bunu qeyri-mümkün bilir. Bu, yalnız cəmiyyətdə fədakarlıq olduqda mümkündür. Bu isə axirət etiqadı olan cəmiyyətlərdə daha da güclü olur. Belə cəmiyyətlərdə insanlar axirəti və ilahi mükafatı düşünərək pullarını təmənnasız olaraq borc və ya sadəqə şəklində digərlərinə verə bilərlər.

Bu baxımından deyə bilərik ki, istənilən iqtisadi böhran, o cümlədən yaşadığımız Qlobal iqtisadi böhran cəmiyyətdə mənəvi və fədakarlıq böhranını əks etdirir. Fədakarlıq və digərlərinə təmənnasız yardım (sədəqə və ya borc şəklində) isə gəlirlərin kəskin qeyri-bərabərliyini azaldaraq iqtisadi inkişafı daha dayanaqlı edir.

Burada fransız filosofu professor Pyer Durtginin İmam Hüseynin Kərbala hərəkəti timsalında fədakarlıq barədə dediyi sözlərini qeyd etmək olar: "Deyə bilmərəm ki, fədakarlıq yenidən dirçələcəkdir. Bu təqribən qeyri-mümkündür. Biz Qərbdə İmam Hüseyn (ə) fədakarlığı kimi bir fədakarlığa malik deyilik. Fədakarlıq sözün əsl mənasında tərbiyə məsələlərində daha çox olmalıdır. Bu o şeydir ki, bu gün əldən vermişik" [2].

Son qlobal böhranın səbəblərini və gedişatını tədqiq edərək dissertasiyada qeyd olunur ki, böhranın ilk əlamətləri 2006-ci ildə

---

2 **http://deyerler.org/111810-fransdz-filosofu-vqjrb-dgnyasd-dmam-hgseynin-j-fjdakarldddna-ehtiyac-duyurv.html**

görsəndi. Həmin ildə ev satışlarının azalması baş verdi. 2007-ci ildə ipoteka kreditləri böhranı baş verdi. 2007-ci ilin ortalarından böhran bütün maliyyə bazarlarına və digər ölkələrə yayıldı.

2008-ci ilin sentyabr ayında iri banklar likvidlik böhranı ilə üzləşdilər. Likvidliyin çatışmazlığı kreditlərin verilməsini azaltdı. Əhaliyyə verilən kreditlərin azalması avtomobil, kompyuter və digər məhsulların satışını azaltdı, nəticədə bu da real sektorda istehsalı azaltdı.

Banklarda likvidlik problemi əmanətlərin banklardan kütləvi şəkildə çıxarılmasına, bu da bir sıra iri bankların müflisləşməsinə gətirib çıxartdı.

ABŞ-ın 5 ən iri investisiya bankları müflis olmuş, satılmış və ya fəaliyyət istiqamətini dəyişmişdır. Bear Stearns və Merrill Lynch satılmış, Lehman Brothers-in müflişləşmiş, Goldman Sachs və Morgan Stanley investisiya bankından adi banka çevrilmişdir.

Böhran əmtəə bazarlarını da əhatə etdi. Belə ki, 2008-ci ildə WTI markalı neftin orta illik qiyməti 100 dollara, ilin ortalarında isə hətta 150 dollara yaxınlaşdı. Böhran nəticəsində neft köpüyünün partlaması neft qiymətlərini 62 dollara (2009-cu il) qədər endirsədə, 2010-cu ildə neft qiymətləri yenidən artmağa başladı və 80 dollara çatdı.




Diaqram 1.1. Neftin qiyməti, doll./barel




Diaqram 1.2. Qızılın qiyməti, doll./troy unsiyası

Böhranın dərinləşməsinin qarşısını almaq məqsədilə bir çox ölkələrdə anti-böhran proqramları qəbul olunmuşdu. Böhrana qarşı dünya ölkələri və beynalxalq təşkilatlar tərəfindən 14 trlyn.

dolladan çox vəsait ayrılmışdır ki, bu da dünya ÜDM-nın 20%-dən yüksəkdir.

Bu vəsaitlərin aşagıdakı istiqamətdə xərclənməsi nəzərdə tutulmuşdur[3]:

1. BVF ehtiyatlarının artırılması və böhrandan ən çox əziyyət çəkmiş ölkələrə yardım;
2. "vergi oazislərə" qarşı mübarizə;
3. müflis olmuş şirkətlərin və bankların rəhbərliyinə bonus ödəmələrinin tənzimlənməsi;
4. ölkələr səviyyəsində stimullaşdırıcı tədbirlər;
5. maliyyə bazarları nəzarətinin gücləndirilməsi;
6. milli iqtisadiyyatların sabitliyinin təmin edilməsi.

Lakin pul kütləsinin geniş miqyaslı emisiyasına baxmayaraq iqtisadi artıma nail oluna bilməmişdir. Bunu aşağıdakılar ilə əlaqələndirmək olar:

- böhranın borclarla əlaqəli olduğuna görə onun aradan qaldırılması borcların qaytarılmasını tələb edir. Lakin borcların qaytarılması cari istehlakı azaldır, bu da böhranı daha da dərinləşdirir[4].
- yüksək borclanma nəticəsində məcmu tələbin azalması iqtisadiyyatda deflyasiya meyllərini gücləndirir, bu da iqtisadi artıma mənfi təsir göstərir.

**İkinci fəsildə** Qlobal maliyyə böhranının Yaxın Şərq ölkələrinə təsiri tədqiq edilir. Dissertasiyada müəyyən olunmuşdur ki, Qlobal maliyyə böhranının Yaxın Şərq ölkələrinə təsiri mülayim olmuşdur. Belə ki, Yaxın Şərqdə 2009-10-cu ildə orta illik iqtisadi artım 3% təşkil etmişdir ki, bu da 2006-08-ci illə müqayisədə 2,6 faiz bəndi aşağıdır. Nefti ixrac edən ölkələrdə isə böhranın təsiri daha güclü olmuşdur. Əgər neft idxalçıları ölkələrində orta illik iqtisadi artım tempi 2006-08-ci illərdə 5,7%-dən 2009-10-cu illərdə 4,7%-dək azalmışdırsa, nefti ixrac edən

---

[3] Musayev A., Nəcəfov S. Qlobal maliyyə böhranının aradan qaldırılması cəhdləri və beynəlxalq maliyyə nəzarətinin təkmilləşdirilməsi zəruriliyi. "Ipək yolu" jurnalı, № 2. "Azərbaycan" Universitetinin məqalələr toplusu, 2009, s. 7

[4] http://expert.ru/expert/2011/40/zhit-po-yaponski/

ölkələrdə orta illik iqtisadi artım tempi 5,5%-dən 2,1%-dək azalmışdır.

Yaxın Şərqin neft ölkələrində iqtisadi inkişaf birbaşa neft qiymətlərindən asılıdır. Bu baxımdan 2000-ci illərdə dunya iqtisadiyyatında baş verən iqtisadi artım, həddən artıq yumşaq pul-kredit siyasəti və İran ətrafında gərginlik neft qiymətlərini artıraraq regionun inkişafına əhəmiyyətli təsir göstərirdi.

2003-2008-ci illərdə neft qiymətlərinin bumu regionda iqtisadi fəallığı gücləndirmiş və xarici ticarət balansını yaxşılaşdırmışdır.

Yaxın Şərq regionunda iqtisadi artımım təhlili göstərir ki, əgər 2000-05-ci illərdə regionun neft ölkələrində iqtisadi artım neft idxalçıları ölkələrilə müqayisədə daha yüksək olmuşdur. Lakin 2006-ci ildən etibarən neft idxalçıları ölkələrində iqtisadi artım tempi daha yüksəkdir. Belə ki, 2000-05-ci illərdə neft ixracatçı ölkələrində illik iqtisadi artım tempi 5,6%, neft idxalçıları ölkələrində 4,1% idisə, 2010-ci ildə ÜDM-nin artım tempi neft ixrac edən ölkələrdə 4,4%, neft idxalçıları ölkələrində isə 4,5% olmuşdur.

Yaxın Şərqin neft ölkələrində iqtisadi artım meylləri. Yaxın Şərqdə Qlobal böhranın ən çox təsir etdiyi ölkələr neft ölkələridir (Birləşmiş Ərəb Əmirliyi, Küveyt və Liviya). Belə ki, 2008-ci illə müqayisədə 2009-cu ildə BƏƏ-də real ÜDM 3,2%, Küveytdə 5,2%, Liviyada isə 2,3% azalmışdır.

Yalnız Əlcəzair, Səudiyyə Ərəbistan və Yəməndə 2010-cu ildə iqtisadi artım 2006-2008-ci illərlə müqayisədə daha yüksək olmuşdur. Ən yüksək artım Yəməndə müşahidə olunur: 2006-2008-ci illərdə 3,4%, 2009-cu ildə 3,9% və 2010-cu ildə 8%.

Qeyri-neft ÜDM-ə gəldikdə, 2000-ci illərdə onun artım tempinin ÜDM-nin artım tempini üstələməsi müşahidə olunur. Belə ki, 2000-05-ci illərdə neft ölkələrində ÜDM-nin artım tempi 5,6%, qeyri-neft ÜDM-nin artım tempi isə 5,9%, 2006-2008-ci və 2009-10-cu illərdə qeyri-neft ÜDM-in artım tempinin üstələməsi daha yüksək olmuşdur. 2006-2008-ci illərdə müvafiq olaraq 5,3%və7%, 2009-2010-cu illərdə isə2,1% və3,4%.

ÜDM-də olduğu kimi, 2009-2010-cu illərdə qeyri-neft ÜDM-də də artım tempinin azalması müşahidə olunur: 2006-2008-ci ildə 7%-dən 2009-2010-cu illərdə 3,4%-dək.

Ən çox azalma Küveytdə (2006-2008-ci ildə 7,7%-dən 2009-cu ildə -1,2%-dək), Omanda (2006-2008-ci ildə 13,5%-dən 2009-cu ildə -0,8%-dək) olmuşdur.

Yaxın Şərqin neft idxalçıları ölkələrindəki iqtisadi artım meyllərini təhlil edərkən aşağıdakıları qeyd etmək istərdik:

2000-ci illərdə Yaxın Şərqin neft idxalçıları ölkələrində bir nəfərə iqtisadi artım tempi 3% təşkil etmişdir ki, bu da keçid iqtisadiyyatı və inkişaf etməkdə olan ölkələrlə müqayisədə 1,8 faiz bəndi aşağı olmuşdur.

Neft ölkələrindən fərqli olaraq 2009-2010-cu illərdə neft idxalçıları ölkələrində ÜDM-nin artım tempinin azalması mülayim olmuşdur. 2006-2008-ci illərlə müqayisədə 2009-cu ildə ÜDM-nin artım tempi Mərakeşdə 5,4%-dən 4,9%-dək, 2010-cu ildə 3,2%-dək, Tunisdə 2006-2008-ci ildə 5,5%-dən 2009-cu ildə 3,1%-dək və 2010-cu ildə 3,7%-dək azalmışdır. Suriyada 2009-cu ildə ÜDM-nin artım tempi artmış (2006-2008-ci illərdə 5,1%-dən 2009-cu ildə 6%-dək), lakin 2010-cu ildə 3,2%-dək azalmışdır.

Qlobal maliyyə böhranına baxmayaraq bəzi neft idxalçıları ölkələrində iqtisadi artımın sürətlənməsi müşahidə olunur. Belə ki, Livanda ÜDM-nin artım tempi 2006-2008-ci illərdə 5,8%-dən 2009-cu ildə 8,5%-dək və 2010-cu ildə 7,5%-dək yüksəlmişdir.

Neft bumu həmçinin neft ölkələrinin ticarət saldosunun kəskin artımı ilə nəticələnmişdir. Belə ki, Yaxın Şərqin neft ölkələrində ixrac 2006-ci ildə 748 mlrd. dollardan 2008-ci ildə 1145 mlrd. doll.-dək artmışdır. 2009-cu ildə neft qiymətlərinin 100 dollardan 62 doll.-dək azalması və qlobal böhran nəticəsində ixrac 789 mlrd. dollara qədər azalmış, 2010-cu ildə isə (neftin qiyməti 62 doll.-dan 80 doll.-dək artmışdır) ixrac 970 mlrd. doll. qədər artmışdır.

2008-ci ildə neft ölkələrində ixracın artımı xarici ticarət saldosunun 397 mlrd. doll.-dək (2007-ci illə müqayisədə 34% çox) artmasına gətirib çıxartmışdır, 2009-cu ildə isə ticarət saldosu 3 dəfədən çox (119 mlrd. doll.-dək) azalmış, lakin 2010-cu ildə ticarət saldosu yenidən artmışdır (239 mlrd. doll.-dək).

*Cədvəl*

**Yaxın Şərq və Şimal Afrika ölkələrinin xarici ticarət saldosu, mlrd. ABŞ doll.**

| | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|
| Yaxın Şərq və Şimali Afrika ölkələri | | | | | |
| - ixrac | 856 | 1006 | 1315 | 942 | 1158 |
| - idxal | 571 | 737 | 957 | 865 | 929 |
| - ticarət saldosu | 285 | 269 | 358 | 77 | 229 |
| Neft ixracatçıları ölkələri | | | | | |
| - ixrac | 748 | 876 | 1145 | 789 | 970 |
| - idxal | 447 | 579 | 748 | 670 | 731 |
| - ticarət saldosu | 301 | 297 | 397 | 119 | 239 |
| Neft idxalçıları ölkələri | | | | | |
| - ixrac | 108 | 129 | 169 | 144 | 156 |
| - idxal | 125 | 155 | 207 | 183 | 194 |
| - ticarət saldosu | -17 | -26 | -38 | -39 | -38 |

Mənbə: International Monetary Fund. Regional economic outlook. Middle East and Central Asia, oct. 2011

Neft idxalçıları ölkələri isə yüksək neft qiymətləri nəticəsində idxalın artması ilə yanaşı ixracın azalması nəticəsində mənfi ticarət saldosu ilə üzləşiblər. Yuxarıdakı cədvəldən göründüyü kimi, 2008-ci ildə neft idxalçıları ölkələrində neft qiymətlərinin artımı nəticəsində idxalın kəskin çoxalması nəticəsində xarici ticarət kəsiri 38 mlrd. doll.-a çatmışdır. Neft idxal edən ölkələrin neft idxalından yüksək asılılığı onları neft qiymətlərinə həssas edir. 2009-cu ildə neft qiymətlərinin və idxalın azalması nəticəsində (neft qiymətləri 38%, idxal isə 12% azalmışdır) xarici ticarət kəsiri sabit qalmış, 2010-cu ildə isə (2010-cu ildə neft qiymətləri 28% artmışdır) idxalın artmasına baxmayaraq, ixracın artması xarici ticarət kəsirinin artmasının qarşısını ala bilmişdir (2010-cu ildə xarici ticarət kəsiri sabit qalmış və 38 mlrd. doll. təşkil etmişdir).

Xarici ticarətdə yaşanan problemlər ölkələrin valyuta məzənnəsinə ciddi təsir etmişdir. Aşağıdakı diaqramdan

göründüyü kimi, 2007-ci ildə regionun bir sıra ölkələrində real effektiv məzənnənin azalması baş vermişdir. 2007-ci ildə Bəhreyn, Səudiyyə Ərəbistanı və Tunisdə də real effektiv məzənnə təqribən 3% azalmış, 2008-ci ildə də Bəhreyndə real effektiv məzənnə 3%, Tunisdə isə təqribən 1% azalmışdır.

Yerli valyutanı dəstəkləmək məqsədilə regionun hökumətləri valyuta bazarında valyuta intervensiyasını həyata keçirməli oldular. Valyuta intervensiyaları nəticəsində 2007-2009-cu illərdə rəsmi valyuta ehtiyatları Sudanda 2 dəfə, Birləşmiş Ərəb Əmirliyində 68%, Bəhreyndə 15%, İraqda 12% (2008-2009-cu illər), Yəməndə 11%, Misirdə 10%, Səudiyyə Ərəbistanda 8% (2008-2009-cu illər), İranda 1,6% azalmışdır.

Neft qiymətlərinin artımı Yaxın Şərqin neft ixracatçı ölkələrində büdcə xərclərinin kəskin artımı ilə müşayiət olunur. Bu, Yaxın Şərq neft ölkələrində büdcə xərclərinin protsiklik olduğunu göstərir. Belə ki, neft bumu dövründə Yaxın Şərq neft ixracatçı ölkələrində büdcə xərclərinin ÜDM-də xüsusi çəkisi 2000-05-ci illərdə 29,8%-dən 2009-cu ildə 39,1%-dək artmış, neft qiymətləri azaldıqda isə 35,6%-dək (2010-cu il) enmişdir.

Büdcə xərclərinin protsikliliyi ən çox İraqda müşahidə olunur. Belə ki, neft qiymətlərinin artdığı dövrdə İraqda büdcə xərcləri ÜDM-nin 72,7%-dən (2006-ci il) 93,6%-dək (2009-cu il), yəni 19,9 faiz bəndi artmış, 2009-10-cu illərdə neft qiymətlərinin azalması isə büdcə xərclərinin 79,8%-dək (13,8 faiz bəndi) azalması ilə müşayiət olunmuşdur. BƏƏ-də də büdcə xərcləri 2000-2005-ci illərdə ÜDM-nin 20,3%-dən 2009-cu ildə ÜDM-nin 37,8%-dək (17,5 faiz bəndi) artmış, 2010-cu ildə ÜDM-nin 29,7%-dək (8,1 faiz bəndi) azalmışdır.

Lakin bəzi ölkələrdə büdcə xərcləri antisiklik olmuşdur. Yəni neft bumu dövründə o azalmış, neft qiymətlərinin azaldığı dövründə isə artmışdır. Belə ki, Bəhreyndə büdcə xərcləri 2000-2005-ci illərdə ÜDM-nin 31,1%-dən 2008-ci ildə ÜDM-nin 27,4%-dək azalmış, 2010-cu ildə isə 32,1%-dək artmış, Qatarda 2000-2005-ci illərdə ÜDM-nin 31,5%-dən 2008-ci ildə 24,6%-dək azalmış, 2010-cu ildə isə 28,2% artmış, Omanda 2000-2005-ci illərdə ÜDM-nin 38,3%-dən 2008-ci ildə 32 %-dək azalmış, 2010-cu ildə 35,3%-dək artmışdır.

Neft bumu nəticəsində büdcə xərclərinin kəskin artması qeyri-neft büdcə kəsirinə səbəb olmuşdur. Belə ki, neft qiymətləri 35,3 doll./barrel olduğu dövrdə (2000-05-ci illər) Yaxın Şərq ölkələrində qeyri-neft büdcə kəsiri 33,2%, 2006-2008-ci illərdə neft qiymətlərinin artdığı dövrdə (2008-ci ildə neft qiymətləri maksimum həddə çatmışdır) qeyri-neft büdcə kəsiri də 50%-dək artmış, 2009-2010-cu illərdə neft qiymətlərinin azalması isə qeyri-neft büdcə kəsirinin sabitləşdirilməsi ilə müşayiət olunmuşdur.

2010-cu ildə ən yüksək qeyri-neft büdcə kəsiri İraqda (qeyri-neft ÜDM-nin 167%-i, bu da 2000-2005-ci illərlə müqayisədə 66 faiz bəndi çoxdur) və Liviyada (qeyri-neft ÜDM-nin 151%-i, bu da 2000-2005-ci illərlə müqayisədə 75 faiz bəndi çoxdur). Ən aşağı qeyri-neft büdcə kəsiri isə İranda (qeyri-neft ÜDM-nin 19%-i) və Sudanda (qeyri-neft ÜDM-nin 12%-i) müşahidə olunur.

Büdcə problemləri neft idxalçıları ölkələrində də müşahidə olunur. Lakin bu, Qlobal maliyyə böhranı ilə əlaqəli deyil və uzun illər ərzində davam etməkdədir. Digər meyl ondan ibarətdir ki, 2000-2008-ci illərdə büdcə kəsirinin azalması müşahidə olunurdusa, 2009-cu ildən etibarən büdcə kəsiri artmağa başladı. Büdcə kəsiri 2000-2005-ci illərdə 7,3%-dən 2008-ci ildə 4,5%-dək azalmış, 2010-cu ildə isə 6,3%-dək artmışdır.

Misirdə büdcə kəsiri 2000-2005-ci illərdə 9,9%, 2009-cu ildə 6,9%-dək azalmış, lakin 2010-cu ildə yenə də 8,1% təşkil etmişdir. Livanda da büdcə kəsiri yüksək olaraq qalmaqdadır: 2000-05-ci illərdə büdcə kəsiri ÜDM-nin 15,3% olmuş, son illər isə 7,2%-dək enmişdir.

Dünya bazarlarında baş verən ərzaq qiymətlərinin artmasına baxmayaraq Yaxın Şərqin neft ixracatçı ölkələrində inflyasiya ilə qeyri-neft büdcə kəsiri arasında əlaqəni müşahidə etmək olar.

Ayrı-ayrı ölkələrə gəldikdə 2000-2005-ci illərdə (bu dövrdə neft qiymətləri 35,2 doll./barrel) Bəhreyn, Əlcəzair, Küveyt, Omanda orta illik istehlak qiymətləri indeksi 3%-dan az, BƏƏ və Qatarda 3-4% olmuşdur. Liviya və Səudiyyə Ərəbistanda

hətta deflyasiya müşahidə olunmuşdur. Yalnız İran, İraq və Yəməndə istehlak qiymətləri indeksi ikirəqəmli olmuşdur.

2006-ci ildən başlayaraq (neftin orta illik qiyməti 66,1 doll./barrel) isə istehlak qiymətləri indeksi artmağa başladı. 2008-ci ildə BƏƏ, Küveyt, Qatar, Liviya, Oman, Sudan və Yəməndə istehlak qiymətləri indeksi ikirəqəmli göstəricilərədək artdı. Ən yüksək inflyasiya isə İran (25,4%) və Yəməndə (19%) müşahidə olundu.

2009-cu ildən, yəni neft qiymətləri azalmağa başladığı dövrdən (2009-cu ildə 62 doll., 2010-cu ildə 79,5 doll./barrel) etibarən isə infyasiya templəri azalmağa başladı. 2010-cu ildə BƏƏ, Bəhreyn, Qatar və Liviyada istehlak qiymətləri indeksi 3%-dən aşağı olmuş, Qatarda hətta deflyasiya müşahidə olunmuşdur.

İranda həyata keçirilən subsidiyalar islahatları nəticəsində 2010-cu ildə inflyasiyanın 12,5%-dək artması müşahidə olunur. 2010-cu ildə 10%-dən yüksək inflyasiya həmçinin Sudan (13%) və Yəməndə (12,1%) müşahidə olunur.

Yaxın Şərqin neft idxalçıları ölkələrinə gəldikdə, burada büdcə kəsiri və inflyasiya tərs mütanasibdir. Belə ki, 2000-2007-ci illərdə büdcə kəsiri azalsa da, inflyasiyanın artımı müşahidə olunurdu. 2008-2010-cu illərdə isə əksinə, büdcə kəsirinin artmasına baxmayaraq, inflyasiyanın azalması müşahidə olunur.

Neft idxal edən ölkələrdə uzun illər ərzində müşahidə olunan büdcə kəsiri yüksək dövlət borcuna səbəb olmuşdur. Neft idxalçıları ölkələrində son illərdə dövlət borcu azalsa da, 2010-cu ildə ÜDM-nin 65%-ni təşkil etmişdir.

Neft ixrac edən ölkələrdə isə dövlət borcu nisbətən aşağı olmuş və 2010-cu ildə ÜDM-nin 20%-ni təşkil etmişdir.

Son illər Yaxın Şərq ölkələri dövlət borcunun əhəmiyyətli dərəcədə azalmasına nail olublar. Belə ki, 2000-2005-ci illərdə neft ixracatçı ölkələrində dövlət borcu ÜDM-nin 45%-i səviyyəsində idisə, 2010-cu ildə o, 25 faiz bəndi azalaraq 20%-dək enmişdir. Neft idxalçı ölkələrində də həmin müddət ərzində dövlət borcu 32 faiz bəndi, yəni 97%-dən 65%-dək azalmışdır.

Neft ixracatçı ölkələrində dövlət borcunun azalması neft gəlirləri hesabına nail olunubsa, neft idxalçı ölkələrində dövlət borcu büdcə kəsirinin azalması hesabına azalır. Lakin bir sıra ölkələrdə (Misir, İordaniya, Livan) dövlət borcu özəlləşdirmədən

gəlirlər hesabına baş verir ki, bu da həmin ölkələrdə ciddi çətinliklər yaradır. Özəlləşdirmə prosesinin zəifləməsi gələcəkdə dövlət gəlirlərinin azalmasına və dövlət borcunun maliyyəşməsində çətinliklərə səbəb ola bilər.

Ən yüksək dövlət borcu Livan (2010-cu ildə ÜDM-nin 134%-i) və İraqda (120%) müşahidə olunur. Misirdə bu göstərici 74%, Sudanda 72%, İordaniyada isə 67% təşkil edir.

Böhran illərində region üzrə dövlət borcunun sabit olmasına baxmayaraq (regionda dövlət borcu 2009-cu ildə 29%-dən 33%-dək artsa da, 2010-cu ildə 31%-dək azalmışdır), bəzi ölkələrdə baş verən büdcə kəsirinin artması dövlət borcunun artmasına gətirib çıxardı. Belə ki, böhrandan əvvəlki il olan 2007-ci illə müqayisədə 2010-cu ildə dövlət borcu Birləşmiş Ərəb Əmirliyində 8%-dən 21%-dək, Qatarda 9%-dən 30%-dək, Bəhreyndə isə 19%-dən 32%-dək artmışdır.

Yaxın Şərqdə region üzrə xarici borcun səviyyəsi son on il ərzində ÜDM-nin 30-35%-i səviyyəsində olmuşdur. Son on ildə neft ixrac edən ölkələrdə xarici borc 25%-dən (2000-2005-cu illər) 32%-dək (2010-cu il) artmış, neft idxalçı ölkələrində isə xarici borcun əksinə azalması müşahidə olunmuşdur. Belə ki, 2000-2005-ci illərdə xarici borcun ÜDM-yə nisbəti 57% olmuşdursa, 2010-cu ildə bu nisbət 32%-dək azaldı.

Ən yüksək xarici borc Bəhreyn və Livanda müşahidə olunur. (Müvafiq olaraq ÜDM-nin 159% və 161%-i). Bəhreyndə xarici borc 2000-2005-ci illərdə 48%-dən 2010-cu ildə 159%-dək artmışdır. Qatarda xarici borc 60%-dən 86%-dək artmış, İraqda 216%-dən (2006-cı il) 108%-dək azalmışdır. 2000-2005-2010-cu illər ərzində Sudanda xarici borc 135%-dən 56%-dək, Suriyada 93%-dən 15%-dək, İordaniyada 73%-dən 25%-dək, Yəməndə 43%-dən 20%-dək, Əlcəzairdə isə 34%-dən 2,8%-dək azalmış, Birləşmiş Ərəb Əmirliyində 17%-dən 47%-dək, Kuveytdə 28%-dən 41%-dək artmışdır.

Regionda iqtisadi artıma baxmayaraq onu dayanıqlı hesab etmək olmaz. Bunu, aşağıdakı meyllər deməyə əsas verir:

İqtisadi artımın işsizliklə müşayiət olunması iqtisadi inkişafın bir sahəli olmasının nəticəsidir və iqtisadi artımın dayanıqlığı üçün çox sahəli inkişaf təmin olunmalıdır[5].

Əgər neft ölkələrində aparıcı sahə neft sahəsidirsə, neft idxalçıları ölkələrində iqtisadi inkişafda böyük rol turizm sektoruna məxsusdur. Livanda turism sektorunun ÜDM-də xüsusi çəkisi 34%, İordaniya, Mərəkeş, Misir və Tunisdə 20%-ə yaxın, Bəhreynda 15%-dən yüksəkdir.

Regionda dayanıqli iqtisadi inkişafa mane olan digər mühüm amil korrupsiyanın geniş yayılması və şəffaf, ədalətli qanunvericiliyin olmamasıdır [6].

Qlobal böhranın Yaxın Şərq regionuna təsiri mövzusuna həsr olunmuş konfransda[7] da Yaxın Şərq regionunda dayanıqlı inkişaf probleminin mövcud olduğu göstərilmişdir.

Birincisi, Yaxın Şərq ölkələrdə aparılan siyasət daha çox xilasetmə siyasəti adlandırıla bilər və monetar, büdcə və sosial siyasət arasında koordinasiya yoxdur.

İkincisi, Yaxın Şərq ölkələrinin regional səviyyədə birgə hərəkət etmələri zəifdir. Bu, ölkələrarası iqtisadi əlaqələrin zəif olması ilə izah oluna bilər. Belə ki, İordaniya və Suriyanın Misir və Tunisə ixracı onların ÜDM-nin yalnız 0,5%-ni təşkil edir[8].

Üçüncüsü, Yaxın Şərq ölkələrinin əksər problemləri struktur xarakter daşıyır və böhran nəticəsində bu problemlər daha da dərinləşdi.

Dördüncüsü, Yaxın Şərq ölkələrində həyata keçirilən sosial siyasət yenidən nəzərdən keçirilməlidir.

Qlobal Maliyyə böhranının Yaxın şərq ölkələrinə təsirini aşağıdaki kimi köstərmək olar:

---

[5] Regional economic outlook. Middle East and Central Asia, International Monetary Fund. aprel 2011, p.62

[6] Regional economic outlook. Middle East and Central Asia International Monetary Fund., oct. 2011, p.46

[7] Global Financial and Economic Crisis: Impact and Response in the MENA Region/ Conference, May 15, 2009

[8] Regional economic outlook. Middle East and Central Asia, International Monetary Fund. aprel 2011, p.45

Birincisi, neft qiymətlərinin azalması neft ixrac edən ölkələrdə ixracın azalmasına gətirib çıxarmışdır. Belə ki, 2008-ci ildə neft ixracatçı ölkələrində ixracın həcmi 1145 mlrd. doll. olmuşdursa, 2009-cu ildə ixrac 789 mlrd. doll. təşkil etmişdir. 2010-cu ildə ixracın həcmi 970 mlrd. doll.-dək artsa da, 2008-ci illə müqayisədə aşağı olmuşdur.

İkincisi, dünya ticarətinin tənəzzülü neft idxalçıları ölkələrində ixracın azalmasına gətirib cıxarmışdır. Neft idxalçı ölkələrində ixracın həcmi 2008-ci ildə 195 mlrd. doll.-dan, 2009-cu ildə 171mlrd. doll.-dək azalmışdır.

Üçüncüsü, xarici investisiyaları cəlb etmək imkanları məhdudlaşmışdır. 2008-2010-cu illərdə regionun əksər ölkələrində xarici investisiyalar azalmışdır. Xarici investisiyalar ən çox Yəməndə (1,6 mlrd. doll.-dan -0,3 mlrd. doll.-dək), Bəhreyndə (1,8 mlrd. doll.-dan 0,16 mlrd. doll.-dək) və BƏƏ-də (13,7 mlrd. doll.-dan 3,9 mlrd. doll.-dək) azalmışdır.

Dördüncüsü, Qlobal böhran Avropa və sair ölkələrdə çalışan miqrantların gəlirlərini azaldaraq pul köçürmələrini azaltmışdır. 2008-ci ildə Misir, Livan, İordaniya, Tunis və Mərakeşə pul köçürmələri 27 mlrd. ABŞ doll. olmuşdur. Lakin Avropa ölkələrində iqtisadi tənəzzül nəticəsində 2008-ci ildə pul köçürmələri Mərakeşdə 2,4% azalmışdır. İordaniyada 2008-ci ilin son rübü ərzində köçürmələr 6% azalmışdır[9] .

Beşincisi, bir sıra inkişaf etməkdə olan ölkələrin, o cümlədən Yaxın Şərq ölkələrinin inkişaf etmiş ölkələrin maliyyə və s. yardımından asılılığı artmışdır. Misal olaraq ABŞ-ın Misirə hər il 2 mlrd. doll. həcmində hərbi yardımını [10], 2009-cü ildə ABŞ kongressinin böhrandan əziyyət çəkən inkişaf etməkdə olan ölkələrə 255,6 mlyn. dollar həcmində yardım ayırmasını göstərmək olar[11].

---

[9] The Impact of the Global Crisis on Neighbouring Countries of the EU//European Commission Directorate-General for Economic and Financial Affairs, 2009, p.35

[10] http://merkez.az/vasinqton-misirə-yardimi-dayandiracaq.html

[11] Arieff A, Martin A. Weiss, Vivian C. Jones. The Global Economic Crisis: Impact on Sub-Saharan Africa and Global Policy Responses, 2010, p.4

**Üçüncü fəsildə** Yaxın Şərq ölkələrində anti-böhran tədbirləri göstərilir və onların təkmilləşdirilməsi üzrə təklif və tövsiyələr verilir. Dissertasiya işində göstərilir ki, Yaxın Şərq ölkələrində stimullaşdırıcı siyasət prioritetləri fərqlənir. Belə ki, yüksək neft qiymətləri neft ixracatçı ölkələrini stimullaşdırıcı tədbirləri maliyyələşdirməyə imkan verir. Lakin neft idxalçıları ölkələri büdcə çətinlikləri ilə üzləşirlər.

Yaxın Şərqin bütün ölkələrində stimullaşdırıcı siyasət ortamüddətli dövrdə həm sosial (yoxsul və işsizlərə müavinətlərin, büdcə işçilərinin əmək haqları və pensiyaların, yanacaq və ərzaq subsidiyalarının artırılması), həm də investisiya (infrastruktur və s. irimiqyaslı layihələrinin maliyyələşdirilməsi) məqsədlərini güdürlər. Bu da büdcənin cari xərclərini artıraraq büdcə dayanaqlığı problemini (xüsusən neft idxalçıları ölkələrində) aktuallaşdırır.

Bank sektorunun likvidliyini qorumaq məqsədilə banklara maliyyə vəsaitləri ayrılmış və güzəştli kreditlər verilmiş, həmçinin ehtiyyat normaları azaldılmış və bank depozitləri sığortalanmışdir. BƏƏ-də 2008-ci ilin oktyabr ayında banklara 13,5 mlrd. doll. məbləğində kredit ayrılmış və hökümət tərəfindən banklarda 19 mlrd. doll. həcmində depozit yerləşdirilmişdir.

Səudiyyə Ərəbistanında cari hesablar üzrə məcburi ehtiyat norması 13%-dən 7%-dək azaldılmış, repo 150 bənd endirilmiş, yerli banklara 36 mlrd. doll. həcmində vəsait ayrılmışdır.

Bəhreyndə Mərkəzi Bank 2008-ci ilin oktyabr ayında bir həftəlik depozitlər üzrə faiz dərəcəsini 25 bənd və overnight repo üzrə faiz dərəcəsini 125 bənd endirmiş, həmçinin sığorta olunan bank depozitlərinin məbləğinin 53,2 min doll.-dək artırılması üzrə plan elan edilmişdir.

Küveytdə Mərkəzi Bank 2008-ci ilin oktyabr ayında repo dərəcəsini 100 bənd və diskont dərəcəsini 125 bənd endirmişdir. Dekabr ayında repo dərəcəsi əlavə olaraq 50 bənd, 2009-cu ilin aprel ayında isə diskont dərəcəsi 3,5%-dək azaldılmışdır. Bundan əlavə Mərkəzi Bank tərəfindən yerli banklara 1,9 mlrd. doll.

həcmində vəsait ayrılmış, kreditlərin depozitlərə nisbəti 80%-dən 85%-dək artırılmışdır.

Həmçinin büdcə dəstəyi paketində ərzaq məhsulları qiymətlərinin artımının kompensasiyası, işsizlərə yardım göstərilməsi və mənzillərin daha əlçatan edilməsi üzrə tədbirlər nəzərdə tutulur. Ən geniş büdcə dəstəyi Səudiyyə Ərəbistanında (ÜDM-nin 15%) qəbul olunub. Burada həm büdcə sektorunda əmək haqlarının artırılması və sosial sığortanın genişləndirilməsi, işsizlik müavinətlərinin artırılması, həm kredit təşkilatlarının borclarının silinməsi, həm də ipoteka kreditlərinin verilməsi və əlçatan mənzillərin tikilməsi nəzərdə tutulur. Digər ölkələrdə dəstəyin dəyəri nisbətən aşağıdır və 0,3%-dən (Əlcəzair) 3,5%-dək (Yəmən) dəyişir və burada daha çox ərzaq subsidiyaları (BƏƏ, Küveyt), ərzaq məhsullarının vergidən müvəqqəti azad edilməsi (Əlcəzair), yeni iş yerlərinin açılması (Oman), işsizliyə görə müavinətlər (Oman), büdcə işçilərinin əmək haqlarının artırılması (Yəmən), pul transferləri (Bəhreyn, Küveyt) nəzərdə tutulur. Yəməndə həmçinin tələbələrə təqaüdlər və universitet məzunlarının işlə təmin olunması nəzərdə tutulur.

Onu da qeyd etmək lazımdır ki, bir çox qəbul olunmuş stimullaşdırıcı tədbirlər daimi xarakter daşıyır ki, bu da gələcəkdə neft qiymətləri azaldıqda dövlət büdcəsi üçün ağır yükə çevrilə bilər. İranda həyata keçirilən subsidiya islahatları və Qatarda benzinin daxili qiymətlərinin artırılması yanacaq subsidiyalarını azaldaraq büdcə üzərinə düşən yükü azaltmağa imkan verir.

İordaniyada büdcə dəstəyi paketi ÜDM-nin 2-2,2%-ni təşkil edir və subsidiyaların verilməsi, büdcə işçilərinin əmək haqlarının, pensiyaların artırılması, əhaliyə sosial yardım və transferlərin verilməsini, yanacaq və ərzaq vergilərinin azaldılmasını nəzərdə tutur.

Misirdə büdcə dəstəyi tədbirlərinə büdcə işçilərinin əmək haqlarının və pensiyaların 15% artırılması, taxıl idxalına subsidiyaların artırılması, kiçik müəssisələrin rekonstruksiyası fondunun yaradılması və vegilərin azaldılması daxildir.

Böhrana qarşı görülən tədbirlərin problemlərə nə dərəcədə uygun olduğunu müəyyən etmək hələ ki çətindir. Əksər Yaxın Şərq ölkələri elan etdilər ki, büdcə tədbirləri müvəqqəti xarakter daşıyır, lakin bu tədbirlərin genişləndirilməsi də istisna

olunmur. Daxili imkanların məhdud olduğunu nəzərə alaraq demək olar ki, qısamüddətli dövrdə anti-böhran stimullaşdırıcı fiskal siyasət neft qiymətlərinin dinamikası və xarici borclanma imkanlarından asılı olacaq. Uzunmüddətli dövrə Yaxın Şərq ölkələri iqtisadiyyatı diversifikasiya edərək neft və xammaldan, həmçinin turizmdən asılılığı azaltmalıdırlar. Bu da təhsil, səhiyyə və infrastruktur sahələrinə genişmiqyaslı dövlət investisiyalarını zəruri edir. Bu baxımdan, elan olunmuş dövlət infrastruktur layihələri təqdirəlayiq hesab oluna bilər.

Yaxın Şərq ölkələri həmçinin anti-böhran tədbirlərinın koordinasiyası və ölkələrarası əlaqələri gücləndirmək məqsədilə bir sıra tədbirlər görmüşlər.

2009-cu ilin yanvar ayında Küveytdə birinci Ərəb ölkələri Liqasının İqtisadi, İnkişaf və Sosial Sammiti həyata keçirilmişdir. Bu tədbirdə Ərəb ölkələri liderləri aşağıdakı qərarlar qəbul etdi [12]:

Maliyyə institutlarını gücləndirmək və tənzimləmə sistemini təkmilləşdirmək məqsədilə milli tədbirlərin həyata keçirilməsi;

Beynəlxalq iqtisadi münasibətlərdə, xüsusilə Qlobal maliyyə sisteminin sabitləşdirilməsində Ərəb dünyasının rolunun gücləndirilməsi;

Mərkəzi Banklar və regional institutlar arasında əməkdaşlığın gücləndirilməsi;

Ərəbdaxili investisiyaları, xüsusən Ərəb ölkələrinin inteqrasiyasını gücləndirən layihələrə investisiya qoyuluşlarını artırmaq məqsədilə regional maliyyə institutlarının dəstəklənməsi;

Ərəb ölkələrinin iqtisadiyyat və maliyyə nazirləri arasında əməkdaşlığın gücləndirilməsi.

Anti-böhran tədbirləri çərçivəsində həmçinin digər ölkələrlə iqtisadi əlaqələrin gücləndirilməsi və xarici ticarətdə olan manelərin aradan qaldırılması üzrə tədbirlər həyata keçirilmişdir. Belə ki, 2009-cu ilin mart ayında Ərəb və Latın Amerika sahibkarlarının İkinci Forumu keçirilmişdir. Forum, Qlobal böhranın təsirinin azaldılmasında Ərəb-Latin Amerika

[12] The Global Economic and Financial Crisis: Regional Impacts, Responses and Solutions//United Nations, 2009, p.81

iqtisadi əlaqələrinin gücləndirilməsinin vacib olduğunu vurğulamış və aşağıdakı qərarları qəbul etmişdir:[13]

Ərəb-Latın Amerika ticarət əlaqələrində tarif və qeyri-tarif manelərinin aradan qaldırılması.

Ərəb və Latın Amerika arasında birbaşa dəniz və hava marşrutlarının açılması.

İki region arasında iqtisadi əməkdaşlığı və sövdələşmələri genişləndirmək məqsədilə sahibkarlara xüsusi vizaların verilməsi.

Baxmayaraq ki, Yaxın Şərq ölkələrində böhrana qarşı görülən tədbirlər böhranın dərinləşməsinin qarşısını ala bilmişdir, Yaxın Şərq ölkələrində aşağıdakı bir sıra tədbirlərin həyata keçirilməsi zəruridir:

1)Yoxsulluğun aradan qaldırılması və əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması.

2) Büdcə intizamının təmin edilməsi.

Regionda iqtisadiyyatın diversifikasiyası həyata keçirilməlidir. Bir sahəli inkişaf (neft ixrac edən ölkələrdə iqtisadi inkişaf neft ixracı əsasında, digər ölkələrdə isə turizm əsasında baş verir) regionu iqtisadi böhranlara qarşı həssas edir.

Digər mühüm çağırış bankların balanslarının təmizləməsi və kredit portfelinin keyfiyyətinin yaxşılaşdırılmasıdır. Bu, tənzimləmə və nəzarət sisteminin təkmilləşdirilməsi, şəffaflığın artması, monetar və fiskal siyasətdə makroprudensial alətlərdən daha geniş istifadə ilə müşayiət olunmalıdır.

Görülən tədbirlərin səmərəliliyini təmin etmək üçün onların müddət üzrə təsnifləşdirilməsi məqsədəuyğundur.

İlk növbədə yoxsulluq problemi aradan qaldırılmalı və əhalinin həyat səviyyəsi yaxşılaşdırılmalıdır.

Bununla yanaşı qısamüddətli dövrdə üstünlük bank sektoruna etibarın təmin edilməsi və kredit fəallığının bərpasına verilməlidir. Bu baxımından bankların kapitalizasiyasının artırılması və balanslarının təmizlənməsinin mərhələli şəkildə həyata keçirilməsi məqsədəuyğundur. Bir sıra neftlə zəngin ölkələr (Birləşmiş Ərəb Əmirliyi, Qatar) bankların kapitalizasiyasını ictimai fondlar hesabına artırırlar. Lakin

---

[13] The Global Economic and Financial Crisis: Regional Impacts, Responses and Solutions//United Nations, 2009, p.81

uzunmüddətli dövrdə bu cur siyasət bank sektorunun kövrəkliyini artırır. İctimai vəsaitlərin bank kapitalına cəlb olunması kredit bazarında qiymətqoyma və risklərin qiymətləndirilməsi prinsiplərini pozaraq kreditlərin keyfiyyətini azadır. Bunu nəzərə alaraq bankların rekapitalizasiyasında özəl kapitala üstünlük verilməsi məqsədəuyğundur.

Son illərdə Yaxın Şərq ölkələrində stimullaşdırıcı fiskal siyasət davam etdirilməlidir. Stimullaşdırıcı siyasətin həm maliyyə imkanları geniş olan neft ixracatçı, həm də büdcə imkanları məhdud olan neft idxalçıları ölkələrində həyata keçirilməsi önəmlidir. Qeyd etmək lazımdır ki, iqtisadi bum dövründə həyata keçirilən stimullaşdırıcı fiskal siyasət nəticəsində yaranmış büdcə kəsiri (2007-ci ildə neft idxalçıları ölkələrində büdcə kəsiri ÜDM-nin 5%-i, neft ixracatçı ölkələrində isə qeyri-neft büdcə kəsiri qeyri-neft ÜDM-nin 39%-ni təşkil etmişdir) böhrana qarşı büdcənin stimullaşdırıcı imkanlarını məhdudlaşdırır. Vergi stimullaşdırılması və ya büdcə xərclərinin artırılması büdcə kəsirinin daha da artıraraq inflyasiya meyllərini gücləndirə bilər.

Bunu nəzərə alaraq ilk növbədə fiskal siyasətin səmərəliliyinın artırılması və büdcə siyasətinin iqtisadiyyatın diversifikasiyasına yönəldilməsi məqsədəuyğundur. Bunun üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

Büdcə siyasətinin antitsiklikliyi təmin olunmalıdır. Bu, üzünmüddətli dövrdə büdcə balansını daha tarazlı edərək makroiqtisadi sabitliyi gücləndirir.

Büdcə gəlirlərinin diversifikasiyası həyata keçirilməlidir. Regionun ölkələrinin vergi gəlirlərinin böyük hissəsi ƏDV təşkil edir. Büdcə sabitliyinin artırılması məqsədilə vergi bazasının genişləndirilməsi üçün vergi gəlirlərində fiziki şəxslərin gəlir vergisi və korporativ mənfəət vergisinin xüsusi çəkilərinin artırılması məqsədəuyğundur.

Büdcə xərcləri və dövlət investisiyaları əhalinin uzunmüddətli səmərəliliyi və faydalarını maksimallaşdırmalıdır. Bu, ilk növbədə məhsulların subsidiyalaşdırılmasından məqsədli sosial təminat sisteminə keçidi nəzərdə tutur.

Uzunmüddətli büdcə sabitliyini təmin etmək məqsədilə büdcə xərclərinin büdcə gəlirlərinin dəyişkənliyindən asılılığının azaldılması məqsədəuyğundur.

Büdcə xərcələrinin və büdcə işçilərinin əmək haqlarının artırılması özəl sektorun sıxışdırılması ilə nəticələnməməlidir. Büdcə xərcləri və əmək haqlarını artıraraq həmçinin nəzərə almaq lazımdır ki, bu xərclər çevik deyil, yəni onları azaltmaq imkanları çox vaxt məhduddur.

Neft ixracatçı ölkələrində neft gəlirlərinin qeyri-neft sektoruna yönəldilməsi siyasətinin həyata keçirilməsi zəruridir. Hal-hazırda neft gəlirlərinin qeyri-neft sektoruna yönəldilməsi əsasən təhsil, səhiyyə, nəqliyyat və s. infrastruktur layihələrinin maliyyələşməsi vasitəsilə həyata keçirilir. Lakin bu, neft gəlirlərinin özəl investisiyalar sektoruna yönəldilməsini təmin etmir. Əksinə, neft ixracatçı ölkələrində neft gəlirlərinin ölkədən çıxarılması prosesi stimullaşdırılır, neft gəlirlərinin böyük hissəsi xarici ölkələrin qiymətli kağızlarına investisiya olunur. Neft gəlirlərinin daha səmərəli istifadəsinə vergi və amortizasiya siyasəti, bunun nəticəsində azalan büdcə gəlirlərinə neft fondundan transfer hesabına kompensasiya vasitəsilə nail olmaq olar.

Ikinci fəsildə göstərildiyi kimi Yaxın Şərq ölkələrində (xüsusən neftlə zəngin ölkələrdə) böhrana qarşı geniş miqyaslı stimullaşdırıcı fiskal və pul-kredit siyasəti həyata keçirilir. Stimullaşdırıcı siyasətin həyata keçirilməsi isə bu ölkələrdə inflyasya və müxtəlif köpüklərin yaranması risklərini artırır. Bu risk neft ölkələri üçün daha aktual görsənir. Bank sektoruna geniş miqyaslı likvidlik dəstəyi bankların kredit vermək hazırlığını artıraraq yüksək inflyasiya ilə nəticələnə bilər.

Monetar siyasətin həyata keçirildiyi zaman onun imkanlarının məhdud olduğunu nəzərə almaq lazımdır. Belə ki, stimullaşdırıcı monetar siyasət və aşağı faiz dərəcələri aşağı gəlirli firma və əhaliyə verilən kredit həcmini artırır ki, bu da kredit risklərinin artmasına gətirib çıxarır. Digər tərəfdən sərt monetar siyasət və yüksək faiz dərəcələri nəticəsində kredit yalnız yüksək gəlirli və beləliklə riskli firmalar və sahələr üçün əlverişli olacaq ki, bu da kredit risklərini artıracaq.

Antitsiklik makroiqtisadi siyasətin həyata keçirilməsi və bank sektorunda həddən artıq risklərin toplanmasının qarşısını almaq məqsədilə makroprudensial alətlərin təkmilləşdirilməsi zəruridir. Yaxın Şərq ölkələrində bir sıra makroprudensial alətlər (kredit-depozit nisbəti, kreditlər üzrə ehtiyatlar, kapitala tələblər, müxtəlif likvidlik əmsalları və s.) tədbiq olunur. Bu alətlərin tədbiqilə yanaşı ilkin xəbərdarlıq sisteminin də inkişafı maliyyə sektorunun sabitliyinin gücləndirilməsini təmin edə bilər.

Son Qlobal böhran göstərdi ki, yalnız qiymət sabitliyinə, qiymətli kağızlar və kredit göstəricilərinə əsaslanan monetar siyasət böhranın qarşısını almaq iqtidarında deyil. Yalnız bütövlükdə maliyyə sisteminin, yəni həm maliyyə qurumlarının, həm də əhali, firmalar və dövlət sektorunun maliyyə sabitliyinin təmin edilməsinə yönəlmiş, həmçinin onun makroiqtisadiyyatla əlaqələrini nəzərə alan makroprudensial alətlər səmərəli hesab olunur.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı elmi məqalələrdə dərc olunmuşdur:**

**1.** Zahediavval M.Q. Orta Şərq regionunda iqtisadi artım meylləri və dayanıqlı iqtisadi artım problemi// İpək yolu, Azərbaycan Universitetinin elmi jurnalı, № 1, 2012, s. 40-48
2. Zahediavval M.Q. 1997-98-ci illər qlobal böhranı: gedişatı, səbəbri və dərsləri.// Müasir dünyada inteqrasiya və müqavimət prosesləri, Beynəlxalq elmi konfrans, Bakı, 2012, s.130-133
3. Zahedi Aval Masoud. The effect of global financial crisis on economic growth in MENA countries// Archives Des Scinces, 2011, Journal (İSSN:1661-464X)Switzerland, Geneva, p. 137-147
4. Zahediavval M.Q. İqtisadi böhranlar və onlarm səbəbləri// Ipək yolu, Azərbaycan Universitetinin elmi jurnalı, № 2. 2012, s. 16-21
5. Zahediavval M.Q. Yaxın Şərq ölkələrində böhrana qarşı görülən tədbirlər// AMEA İqtisadiyyat İnstitutu "Elmi əsərlər", № 3. 2012, səh. 120-125
6. Zahedi Aval Masoud. An İnvestigation of Similarities and Differences between Economics and Accounting// Life Science journal (İSSN 1097-8135) Vol.9.N S2, 2013, p.310-314

7. Zahediavval M.Q. Yaxın Şərq ölkələrində qlobal iqtisadi böhranın gedişatının təhlili// AMEA İqtisadiyyat İnstitutu "Elmi Əsərlər", № 1, 2013, s. 138-143
8. Захадиаввал М.Г. Глобальный кризис 2007-08 гг.: причины и ход кризиса// Вестник экономической интеграции, Москва, 2013, с. 135-140

Захадиаввал Масуд Гуламреза оглы

**Влияние глобального финансового кризиса на экономику стран Ближнего Востока**

# Резюме

Диссертация посвящена проблеме влияния глобального финансового кризиса на страны Ближнего Востока, а также, оценке антикризисных мер, осуществляемых в 2010-2011 годах на Ближнем Востоке, и путям увеличения эффективности этих мер.

В работе показано, насколько серьёзной проблемой оказался финансово-экономический кризис 2008 года для стран Ближнего Востока, и наличие ряда опасностей для устойчивого развития этих стран, несмотря на проводимые антикризисные мероприятия. В диссертации отмечается, что эти опасности присутствовали и в докризисный период, но кризис способствовал их усилению и выраженному проявлению.

В исследовании также анализируются проблемы экономического роста и безработицы, внешнеторгового баланса, валютного курса, зависимости от фактора нефти, и другие.

Диссертационная работа состоит их введения, трёх глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность исследования, степень изученности проблемы, излагаются цели и задачи работы, её теоретико-методологическая и информационная база, предмет и объект работы, научная новизна, практическая значимость, представлена информация о применении результатов работы и её апробации. I глава диссертации названа «Финансово-экономические кризисы и теоретико-методологические основы изучения их причин», и в ней затрагиваются взгляды различных экономических школ на проблему экономических кризисов, и причины таких кризисов. Также, здесь

исследуются причины глобального кризиса 2007-2008 гг., его протекание и меры антикризисного воздействия на него.

II глава диссертации озаглавлена «Влияние глобального финансового кризиса на страны Ближнего Востока». В ней оценивается экономическая ситуация в странах Ближнего Востока накануне глобального финансового кризиса, и проблема устойчивого развития Ближневосточного региона.

В III главе – «Антикризисные меры в странах Ближнего Востока и предложения и рекомендации по их усовершенствованию», выдвигаются новые предложения по мерам против глобального экономического кризиса на Ближнем Востоке, и антикризисным мероприятиям, в целом.

В заключении обобщаются важные методологические и практические результаты диссертационного исследования.

**Zahediavval Masoud Gulamrza**

## Impact of the Global Financial Crisis on Economies of the Middle East Countries

### SUMMARY

The dissertation has been dedicated to evaluation of the global financial crisis on economies of the Middle East countries, anti-crisis measures carries out in these countries in 2010-2011and the ways for increasing the efficiency of such measures. The research work reveals that the global financial crisis of 2008 has seriously affected the Middle East countries, though anti-crisis measures carried out in these countries and has born several threats to stable development of their economies. It has been noted in the research work that such threats existed before the crisis and the crisis only revealed and deepened them.

The dissertation reviews problems as economic growth and unemployment, foreign trade balance, currency rate, dependence on oil and etc. in the Middle East countries.

The research work consists of an introduction, three chapters, a conclusion and references.

The introduction reveals the topicality of the subject, studying level of the problem, the purpose and duty of the research work, its theoretical-methodological and informative basis, the object and subject of the study, its scientific innovation, practical importance, application of the conclusions and approbation.

The first chapter is called "Economic-Financial Crises and Theoretical-Methodological Bases of Studying Their Reasons" and reviews opinions of different economic schools on economic crises and reasons of the crisis. It also presents an analysis of the reasons and process of the global crisis in 2007-2008 and anti-crisis measures.

The second chapter of the dissertation work is named "Impact of the Global Financial Crisis on the Middle East Countries" and has been dedicated to evaluation of the economical situation on the eve of the crisis and the problem of stable development in the Middle East region.

The third chapter is called "Anti-crisis Measures in the Middle East Countries and Suggestions and Recommendations on Improvement of Such Measures". This chapter reviews anti-crisis measures carried out in the Middle East countries and offers several suggestions and recommendations on such measures.

Some important methodological and practical conclusions have been generalized and presented in the end of the research work.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**Захадиаввал Масуд Гуламреза оглы**

# Влияние глобального финансового кризиса на экономику стран Ближнего Востока

**5310.01 – Мировая экономика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по экономике**

**БАКУ – 2013**